# HEYDƏR ƏLİYEVİN

## Akademik İsa Həbibbəylinin tədqiqatlarında



Salatın ƏHMƏDLİ,
dosent

*(Əvvəli ötən saylarımızda)*

* * *

İsa Həbibbəylinin “Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr” məqaləsində dövlət xadimi Heydər Əliyevin çoxillik ictimai-siyasi fəaliyyəti (1969-1986) araşdırılır, “Sovet rejiminin inkişafda olan dövrü (1969-1986), mürəkkəb keçid prosesləri (1987-1990), Azərbaycanın dövlət müstəqilliyi mərhələsi (1991-2003) kimi səciyyələnən 35 illik bir epoxanın aparıcı şəxsiyyətlərindən, əsas simalarından olan Heydər Əliyevin böyük siyasətdə keçdiyi çətin və şərəfli yol, ən çətin məqamlarda onun tutduğu obyektiv və qəti mövqe, atdığı düşünülmüş addımlar, əldə etdiyi ciddi və mühü m nəticələr əslində çox mənalı və ibrətamiz məktəbdir”,-deyən İsa Həbibbəyli beynəlxalq siyasi aləmdə və Azərbaycanda özünəməxsus xüsusi yeri və əhəmiyyəti olan, tarixə düşən, hər yeni tarixi mərhələ üçün aktual və müasir səslənən, həmişəyaşarlıq qazanmış Heydər Əliyev siyasi məktəbini özünü təsdiq etdiyini vurğulayır. Onun məruzələri, nitqləri, çıxışları, imzaladığı tarixi qərarlar və sərəncamlar, hətta verdiyi tapşırıq və tövsiyələrini küll halında “həmin böyük siyasət məktəbinin möhtəşəm və mötəbər dərsliyi” kimi yüksək qiymətləndirir: “Heydər Əliyevin siyasi kursunun bu böyük dühanın parlaq adını və çoxcəhətli fəaliyyətini, geniş dünyagörüşünü və mənalı irsini əhatə edən zəngin dövlətçilik təlimi siyasi-ideoloji baxışlar sistemidir. Heydər Əliyev siyasi kursu - qlobal yanaşma ilə milli dəyərlərin vəhdətindən yoğrulmuş düşünülmüş yetkin təlimdir. Heydər Əliyev siyasi kursu - milli dövlətçilik təliminin strategiyasından, xalqın inkişaf dialektikasının taktikasından ibarətdir. O, böyük siyasətin uzaqvuran topu, ağır artilleriyası idi. Heydər Əliyev siyasi kursu - xalqı bir yumruq kimi birləşdirən, yaşadan, səfərbər edən və daha böyük gələcəyə aparan gerçək siyasətin ifadəsidir. Nəhayət, Heydər Əliyev siyasi kursu - cəmiyyət həyatının, ümummilli inkişafın əbədiyyət ünvanlı lokomotividir”.

Böyük sınaqlardan çıxmış Heydər Əliyev siyasi kursunun nüvəsini, cövhərini Azərbaycançılıq təliminin təşkil etdiyini bildirən alim bu fikirdədir ki, “Azərbaycançılıq çoxcəhətli istiqamətlərə malik olan Heydər Əliyev siyasi kursunun tac damarıdır”, müstəqil Azərbaycan isə “universal zəkaya malik olan Heydər Əliyev dühasının şah əsəridir”.

Azərbaycançılıq məfkurəsinin publisistikaya XIX əsrin axırlarında Məhəmmədağa Şahtaxtlı, ədəbiyyata XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadə, milli siyasətə, dövlətçilik təliminə isə keçən yüzilliyin sonlarında qüdrətli siyasi xadim Heydər Əliyevin gətirdiyini söyləyən İsa Həbibbəyli məhz Heydər Əliyevin onun yüksək siyasi ideyalarını dəstəkləyir, ağıllı və uzaqgörən siyasətinin nəticəsi olan Azərbaycançılıq təliminin müstəqil Azərbaycanın dövlətçilik ideologiyasına çevrilməsini, onun ilk dəfə olaraq dünya azərbaycanlılarını vahid Vətən amalı ətrafında birləşdirməsini, Dünya Azərbaycanlılarının Qurultayının tarixə dünyanın müxtəlif qitələrinə səpələnmiş Azərbaycan xalqı nümayəndələrinin Heydər Əliyev forumu kimi daxil olmasını alqışlayır: «Hamımızın bir vətəni var. Bu - Azərbaycandır» kimi ata sözünə çevrilmiş müdrik kəlamın da müəllifi Heydər Əliyevin olduğunu söyləyən alim Dünya Azərbaycanlıları ilə İş üzrə Dövlət Komitəsinin “Heydər Əliyevin milli dövlətçilik strukturuna daxil etdiyi qurum” bilir. Xarici ölkələrdə Azərbaycan diasporunun formalaşdırılmasının, inkişaf etdirilməsinin də Heydər Əliyevə aid olan tarixi xidmətlərdən biri kimi qiymətləndirir.

“50 milyonluq dünya azərbaycanlılarının lideri” Heydər Əliyevin “azərbaycançılıq təlimi”nin tarixi dəyərlərlə müasir inkişafı özündə cəmləşdirdiyi, “siyasi kursunun ana maddəsi” xalqımızın dövlət müstəqilliyindən ibarət olduğu, hələ sovet hakimiyyəti illərindən Azərbaycanın dövlət müstəqilliyinə doğru düşünülmüş qəti addımlar atdığı, böyük siyasi-ideoloji çətinliklərə baxmayaraq, Azərbaycan dilini dövlət dili kimi Azərbaycan Sovet Respublikasının Konstitusiyasına daxil etdiyi, Cəmşid Naxçıvanski adına Hərbi Liseyi təşkil etməsi, milli hərbçi kadrlarının hazırlanması üçün baza yaratması, həm milli şüurun, həm də milli kadrların formalaşdırılması istiqamətində apardığı ardıcıl iş, həyata keçirdiyi məqsədyönlü dövlət siyasətinin xalqımızı gələcək müstəqilliyə hazırlamağa xidmət etməsi, müstəqillik qazandıqdan sonra çoxcəhətli siyasi fəaliyyətinin daha geniş miqyas alması, sistemli, ardıcıl və açıq xarakter daşıması Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətləri kimi yüksək qiymətləndirilir.

1990-cı ilin şaxtalı qış günlərində Moskvadakı Azərbaycan Daimi Nümayəndəliyinə gələrək Respublikada 20 yanvar faciəsi törətmiş Sovet İttifaqı rəhbərliyini kəskin şəkildə ittiham edən, qətiyyətli bəyanatla çıxış edən Heydər Əliyevin “yeni tarixi epoxanın başlanğıcında müstəqillik uğrundakı mübarizəsinin parolu kimi böyük əhəmiyyət” kəsb etdiyini yazır: “Qarabağda gedən böyük oyunların xalqın başına açdığı müsibətlər dövründə, Qarabağ savaşının zor, çətin, mürəkkəb dövründə onun Naxçıvan Muxtar Respublikasının əhalisini öz ətrafında birləşdirərək Azərbaycanın bu qədim diyarını erməni işğalından xilas etməsi, Naxçıvan parlamentində milli dövlətçilik atributu olan üçrəngli bayrağın Azərbaycan Respublikasının dövlət rəmzi kimi qəbul edilməsi, Naxçıvanın muxtariyyət statusunu ifadə edən formatdan «Sovet Sosialist» sözlərinin çıxarılması, Naxçıvanda mövcud olan sovet ordusu hissələrini dinc yolla tərksilah etməsi, həmin ordu birləşmələrinin mülkiyyətini, silah-sursatını qansız-qurbansız Muxtar Respublikanın balansına keçirməsi, milli ordunun təməlini qoyması, Naxçıvanda çalışdığı illərdə 31 dekabrın “Dünya Azərbaycanlılarının Həmrəylik Günü” kimi qəbul edilməsinə dair qəbul etdiyi tarixi qərar “müstəqillik uğrunda mübarizədə Heydər Əliyevə məxsus qəhrəmanlıqlardır”, - deyir.

İsa Həbibbəyli Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci mərhələsini araşdırır, yenicə qazanılmış, sadəcə elan olunmuş dövlət müstəqilliyinin itirilmək təhlükəsi qarşısında qalan ölkəmizin ictimai-siyasi, iqtisadi-hərbi problemlərinin uğurlu həllində böyük rolunu göstərir. Qondarma Talış-Muğan Respublikasının ləğv edilməsi, Vətənimizin ərazi bütövlüyünün qorunub saxlanılması, ölkənin parçalanma təhlükəsinin aradan qaldırılması, Heydər Əliyevin müstəqilliyin gerçək mənada möhkəmləndirilməsi yollarındakı danılmaz böyük xidmətidir. Ermənistan - Azərbaycan münaqişəsini dayandırması, atəşkəs sazişinə nail olması, mütəşəkkil, nizamlı ordunun yaradılması görkəmli dövlət xadiminin müstəqillik uğrunda mübarizəsində mühim tarixi hadisə sayılmağa layiqdir. Ölkədə müstəqilliyin daha da möhkəmləndirilməsinə hesablanmış genişmiqyaslı islahatların gerçəkləşdirilməsi, elmin, təhsilin, mədəniyyətin sürətlə inkişaf etdirilməsi sayəsində milli düşüncənin dərinləşdirilməsi nəticə etibarilə müstəqillik təfəkkürünün yetkinləşməsinə, dönməz xarakter almasına özünün sanballı töhfəsini vermişdir”.

İsa Həbibbəyli Heydər Əliyevin siyasi təlimində xüsusi əhəmiyyətə malik olan məsələlərdən biri kimi ictimai-siyasi sabitliyi dəyərləndirir. Azərbaycanda dövlət müstəqilliyinin başlanğıc illərində, AXCP-Müsavat hakimiyyəti dövründə ölkədə yaranmış “xaos, çaşqınlıq”ın ciddi və təhlükəli bir böhranın yaranmasına gətirib çıxarması, “təhlükəli vəziyyət yaradan, qorxu, vahimə oyadan, çaşqınlıq toxumları səpən gizli silahlı dəstələrin, terrorçu qrupların” qətiyyətlə zərərsizləşdirilməsini “Heydər Əliyevin ictimai-siyasi sabitliyi təmin etmək baxımından həllinə nail olduğu əsas məsələlərdən biri” bilir. “Hətta dövlət çevrilişinə cəhd göstərən, silahlı yolla hakimiyyəti devirmək istəyən, sağdan-soldan dəstək alan axınların kökünün kəsilməsi Azərbaycanda müstəqilliyin sabahına ümidlə baxmağa böyük inam yaratdı. Bu mənada, Azərbaycanda bərqərar olan sabitlik görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən ölkəmizə bəxş edilmiş böyük ərməğandır, əvəzsiz nemətdir. Sabitlik - Heydər Əliyev inkişaf strategiyasının siyasi-ideoloji və hüquqi təminatıdır”.

Tədqiqatçı-alim Heydər Əliyevi Azərbaycanda müstəqil dövlətçiliyin baş memarı kimi qiymətləndirir. Dövlət quruculuğu prosesini düşünülmüş şəkildə irəli aparan, dünya təcrübəsinə, ölkəmizin imkanlarına və tələbatlarına uyğun şəkildə dövlət qurumlarının formalaşdırılması, gərəksiz təşkilatların ləğv edilməsi, yenilərinin yaradılması yollarındakı səylərinin “özünəməxsus dövlətçilik siması olan müstəqil bir ölkənin formalaşdırılması ilə nəticələndiyini, qeyri-peşəkar kadrların yüksək ixtisaslı, təcrübəli mütəxəssislərlə əvəzedilməsi də dövlət quruculuğu sahəsində böyük irəliləyişin təmin edilməsinin hərəkətverici qüvvəsinə çevrildiyini, qeyd edir: “Nəticədə Azərbaycanda cəmiyyət həyatını irəliyə aparan, müstəqillik şəraitində qarşıda duran problemləri həll etməyə qadir olan, beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilən güclü bir dövlət strukturu ərsəyə gətirilmişdir”.

Heydər Əliyevin xarici siyasət sahəsindəki rolunu araşdırır, onun “tarazlaşdırılmış, balanslaşdırılmış xarici siyasəti”ni onun adı ilə bağlı olan siyasi təlimin ana maddələrindən biri bilir: “Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin xarici siyasət strategiyasını müəyyən edərkən tarazlaşdırılmış siyasi yanaşmanı əsas kimi qəbul etməyi vacib saymışdır. Tarazlaşdırılmış xarici siyasət dövlətimizin maraqlarına uyğun olan ölkələrin hamısı ilə əlaqə yaratmağa, münasibətləri daha da inkişaf etdirməyə şərait yaradan müstəqil siyasi yanaşma kimi özünü doğrultmuşdur. Bu yanaşma Azərbaycan dövlətinin siyasi mühitdə böyük dövlətlərin şərtlərini deyil, öz ölkəsinin maraqlarını əsas götürməsini şərtləndirmişdir. Siyasətin bu formatı beynəlxalq aləmdə Azərbaycana çoxlu dost ölkələr və etibarlı tərəfdaşlar qazandırmışdır. Nəhayət, bu siyasi format Azərbaycanın müstəqil surətdə xarici siyasət yeridə bilməsini təmin etmişdir”.

Neft strategiyasının əsasını qoymuş Heydər Əliyevin müstəqil dövlətimizin taleyində neft sənayesinin xüsusi rolunu və əhəmiyyətini lazımı səviyyədə dəyərləndirməsi, Neft strategiyasının beynəlxalq layihələrin, iqtisadi proqramların həllinə doğru istiqamətləndirilməsi, «Bakı-Tbilisi-Ceyhan» neft ixrac boru kəmərinin, «Bakı-Tbilisi-Ərzurum» qaz kəmərinin, «Bakı-Tbilisi-Qars» dəmir yolu layihələrinin də Ceyhana uzanan nəhəng magistralı tamamladığı, beləliklə, neft siyasətinin Azərbaycanın hərtərəfli inkişafının əsas generatoru statusunu qazandığı, hətta ölkəmizdə qeyri-neft sektorunun inkişafının da “uğurlu neft strategiyasının bəhrəsi” olduğu bildirilir.

Sosial yönümlü büdcə siyasətinin də Heydər Əliyev “siyasi kursuna” aid olduğu və ardıcıl olaraq xalqın həyat səviyyəsinin yüksəldilməsinə dövlət qayğısı siyasətini izlədiyini, Prezident təqaüdü formatında rəğbətləndirmənin təsis edilməsinin Müstəqil Azərbaycanın adlı-sanlı ziyalılarının, alimlərin və mədəniyyət xadimlərinin qorunub saxlanılmasına, yaşadılmasına uğurla xidmət etdiyini, vaxtaşırı Prezident mükafatlarının verilməsinin də “ölkəmizdə yeni nəslə, böyük istedadlara dövlət dəstəyinin” əməli ifadəsi olduğunu, məhz bunların sayəsində «Heydər-xalq, xalq-Heydər» formatında müdrik ata sözləri formalaşdığını yazır: “Heydər Əliyev siyasi kursu daim inkişafda olan bir təlim olaraq yaşayır və həmişə müstəqilliyimizin daha da möhkəmləndirilməsinə təkan verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu böyük və sınaqlardan çıxmış dövlətçilik strategiyasını yaradıcı şəkildə və böyük səriştə ilə davam və inkişaf etdirir”.

# DÖVLƏTÇİLİK TƏLİMİ

Ümumiyyətlə, yeni dövrün görkəmli siyasətçisi və dövlət xadimi kimi Prezidentimiz İlham Əliyev üçün böyük siyasətdə, beynəlxalq münasibətlərdə, ölkədaxili məsələlərin həllində, dövlət idarəçiliyində Heydər Əliyev siyasi təliminin "möhkəm təməl, ən etibarlı bünövrə"si bilir: "İlham Əliyev hakimiyyəti həmin qranit dövlətçilik pyedestalı üzərində ucalır. Prezident İlham Əliyev özünü təsdiq etmiş Heydər Əliyevin dövlətçilik təlimini əsas kimi qəbul etməklə yanaşı, bu həmişəyaşar siyasi kursu yeni dövrün, dünya düzəninin gerçəklərinə uyğun olaraq daim inkişaf etdirir, qiymətli əlavələrlə zənginləşdirir. Hadisələrə və proseslərə tarixi baxışla bir sırada dünyanın hazırkı reallıqlarının və yeni dövlətçilik təfəkkürünün işığında yanaşmaq, qiymət vermək və bütün bunlara uyğun olaraq əsaslı qərarlar qəbul etmək İlham Əliyev idarə etməsinin əsasını təşkil edir". Prezident İlham Əliyevin yeni tipli dövlət başçısı olduğunu, bütövlükdə yeni əsrin görkəmli siyasi liderlərindən biri səviyyəsinə yüksəldiyini əyani şəkildə nümayiş etdirən məsələlərdən biri kimi Naxçıvan Muxtar Respublikasına "Türkiyə-Avropa, İran-Şərq qapısı kimi xüsusi önəm verən ümummilli lider Heydər Əliyevin strateji xətti"nin sonrakı illərdə də müntəzəm həyata keçirilməsi, Heydər Əliyevin böyük uzaqgörənliyi sayəsində Türkiyə ilə Naxçıvan arasında Sədərək-Dilucu körpüsü salınmaqla mühüm strateji məqsədlərə yol açılması, Prezident İlham Əliyevin 2007-ci ildə rəmzi lentini kəsdiyi Şahtaxtı-Poldəşt körpüsü blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasına yeni həyat nəfəsi bəxş etməsi, Naxçıvanda yeni bir Şərq-Qərb nəqliyyat dəhlizi formalaşdırılması, Bakı-Tbilisi-Qars dəmir yolu marşrutunun yaxın gələcəkdə Qars-İğdır-Sədərək-Şərur vasitəsilə Naxçıvana birləşdirilməsi layihəsinin reallaşdırılacağı barədə ölkə Prezidenti səviyyəsində səslənən bəyanatların regionda böyük inkişafa təkan verəcəyi, Heydər Əliyev tərəfindən təməli qoyulan Naxçıvana qaz çəkilişi, Naxçıvan Beynəlxalq Hava Limanının tikilişi, Vayxır su anbarının inşası kimi iri həcmli layihələrin Prezident İlham Əliyev tərəfindən başa çatdırılaraq xalqın istifadəsinə verilməsinin "vahid siyasətin, böyük siyasi kursun konkret bir regiondakı bəhrələri" olması və s. təqdir edilir. Çoxlu iş yerlərinin açılmasını, sənayeləşmə sahəsinin dirçəldilməsini, energetika sektorunun əsaslı şəkildə yenidən qurulmasını, məktəb tikintisinin və kompyuterləşmənin sürətlə inkişaf etdirilməsini, quruculuq proseslərinin geniş vüsət almasını", Naxçıvan Muxtar Respublikasına yönəldilmiş siyasətin özünün strateji məqsədlərinə çatdığını təqdir edir.

Bu sahədə qazanılan uğurlarda Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun rolunu diqqətə çəkir. Heydər Əliyev siyasi kursuna dərin sədaqəti və ölkəmizin Prezidentinin dövlətçilik strategiyasına məsuliyyətli münasibəti, konkret əməli işlə cavab verməsi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu qədim diyarda böyük və sürətli inkişafa nail olmaq, hərtərəfli iki böyük liderin siyasi fəaliyyəti ilə bağlı araşdırmaları, təhlil və analizləri İsa Həbibbəylini bu qənaətə gətirir ki, "göründüyü kimi, ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan mükəmməl dövlətçilik təlimi müstəqil Azərbaycan dövlətinin inkişafının böyük siyasi təməlini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu böyük dövlətçilik və müstəqillik təlimini yaradıcı şəkildə davam etdirməsi, zəruri əlavələr və yeniliklərlə zənginləşdirməsi Azərbaycanımıza beynəlxalq aləmdə, regionda, ölkə daxilində - hər yerdə tərəqqi, inkişaf, rifah və xoşbəxtlik bəxş edir".

Prezident İlham Əliyev "müstəqil Azərbaycanın yeni inkişaf mərhələsinin qüdrətli memarı, geniş mənada isə bütövlükdə yeni çağın, müasir dövrün görkəmli siyasi lideri" kimi yüksək qiymətləndirir.

"Heydər Əliyevin dövlətçilik təlimində Ədəbiyyat siyasəti və müasirlik" adlı yazısında böyük ədəbiyyatın həmişə dünyanın qüdrətli dövlət xadimlərinin həyatında və siyasi fəaliyyətində mühim yer tutduğunu, onların bir çoxunun dünya ədəbiyyatının ən fəal mütaliəçisi kimi tanındığını, bir çox siyasi rəhbərlərin, hətta bəzən bədii ədəbiyyata dair bilik və informasiyaları ilə ziyalı mühitini heyrətləndirdiyini, şeir, sənət həvəskarları olduğunu, şeir yazan, dramatik əsərlərini teatrlara təqdim edən rəhbərlərin də olduğunu az da olsa ədəbiyyatdan, yazıçıdan uzaqda dayanan, bu sahəyə rəğbəti olmadığını gizlədə bilməyən ölkə başçıları haqqında da məlu-



matların mövcudluğunu diqqətə çəkən İsa Həbibbəyli "ədəbiyyatı dövlət siyasətinin üzvi tərkib hissəsi səviyyəsində qəbul edən, bu tükənməz xəzinədən milli siyasətin həyata keçirilməsində bacarıqla və yaradıcı şəkildə faydalanan" dövlət xadimlərindən Heydər Əliyevin taleyində və siyasi fəaliyyətində ədəbiyyat faktorunun yerini, rolunu və imkanlarının genişliyini təqdir edir: "Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, Heydər Əliyev dünyada geniş və sistemli ədəbiyyat biliyinə malik olan nadir dövlət xadimlərindən" biri olub gəncliyindən ədəbiyyata bağlılığını, dünyabaxışının formalaşmasında ədəbiyyat amilinin xüsusi yer tutduğunu bildirir. Onun 1997-ci ildə, müstəqillik dövründə keçirilən Azərbaycan yazıçılarının onuncu qurultayındakı nitqində («Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan,hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... Mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu «oxumuşam, unutmamışam» sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam».) bu həqiqəti etiraf etdiyini yazır.

* * *

"Həyatda və böyük siyasətdə İlham Əliyev körpüləri" adlı məqaləsində İsa Həbibbəyli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi "XXI əsrin meydana çıxardığı yeni siyasi liderlərin və dövlət başçılarının ən görkəmlisi" kimi yüksək qiymətləndirir.

"Müstəqil Azərbaycan dövlətini həm mükəmməl şəkildə" idarə edən, həm də istənilən "mötəbər məqamda böyük ləyaqətlə təmsil etmə vəzifəsini yüksək səviyyədə" gerçəkləşdirən İlham Əliyevin səyi nəticəsində "Azərbaycan Respublikasında köklü, davamlı dövlətçilik ənənələrinin qorunub saxlanılması şərtilə dövlət strukturu böyük sürətlə Avropa standartlarına uyğunlaşdırılır, dövlətin idarə olunmasının ən müasir forma və metodları uğurla tətbiq olunur. Ölkəmizdə demokratik cəmiyyətin, bazar münasibətlərinə əsaslanan iqtisadi siyasətin bərqərar olması proseslərinə ciddi fikir verilir.

Ölkəmizin iqtisadiyyatında özəl sektorun inkişafını, neft gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsində Prezident İlham Əliyevin siyasətinin böyük rolu olduğunu bildirən İsa Həbibbəyli Azərbaycanda gedən geniş quruculuq işlərinə diqqəti çəkir, ölkə başçısının səyləri nəticəsində Bakı şəhərinin "möhtəşəm körpülər, abad yollar və çoxsaylı göydələnlər şəhərinə" çevrildiyini, bölgələrimizdə aşkar görünən "hərtərəfli intibahın, sürətli canlanmanın, müasir həyatın bərqərar olması ideyasının memarı və müəllifi" olduğunu yazır: "Bir sözlə, qısa müddətdə sözün əsl mənasında möhtəşəm addımlarla irəliləyən müstəqil Azərbaycan dövlətinin böyük tərəqqisində İlham Əliyevin Prezidentlik fəaliyyətinin xüsusi payı vardır.

İlham Əliyev artıq dünyada qəbul olunmuş görkəmli siyasi liderdir. Bir çox dövlət başçıları yalnız ölkəyə rəhbərlik vəzifəsini yerinə yetirməklə kifayətlənməli olurlar. Onların bir çoxunun ampulası praktik rəhbərlikdən başqa daha heç nəyi əhatə edə, yaxud əks etdirə bilmir. Prezident İlham Əliyev isə kamil dövlət xadimi olmaqla bir sırada həm də geniş, qlobal dünyagörüşə, analitik təhlil bacarığına, praqmatik baxışlara malik olan mükəmməl siyasi xadimdir. O, mövcud siyasi reallıqları inkişafda olan ictimai proseslərlə böyük məharətlə uzlaşdırmağı bacarır. Siyasi gerçəklikləri dərindən, ətraflı və sistemli şəkildə dəyərləndirəndə də, yaxın və uzaq gələcəkdən söz açanda da o nikbin və realist görünür. Nikbinlik, gerçəklik, müdriklik, dərin analitik düşüncə, aydın və yetkin məntiqi təfəkkür onun siyasi portretinin təməl prinsipləridir. Boş vədlərdən, süni populizmdən, keçici görüntüdən uzaq olmaq İlham Əliyevin xarakteridir".

Azərbaycan xalqının, eləcə də dünya dövlətlərinin İlham Əliyevi "böyük siyasətçi, yaxud siyasi idarəetməni həyati proseslərlə bütün incəliklərinə qədər uzlaşdırmaq vəzifələrini məharətlə gerçəkləşdirən kamil siyasi xadim kimi" qəbul etdiyini söyləyir: "Fikrimcə, yeni siyasi lider kimi İlham Əliyev səviyyə etibarilə post sovet məkanının sədlərini və miqyasını çoxdan aşmışdır. Hələ Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinə başçılıq edəndə yeni təfəkkür sahibi kimi parlaq çıxışlar edib, bəyanatlar verdiyi illərdə o, Avropa evi səviyyəsində düşünmək potensialına malik bir siyasətçi kimi dərk olunmuşdu. Prezident kimi İlham Əliyevin siyasi-ideoloji postulatı artıq böyük dövlətlərin rəhbərlərinin, yaxud təcrübəli siyasi xadimlərin səviyyəsi ilə bir sırada dayanır. O, böyük siyasətdə milli təfəkkürlə bəşəri düşüncəni birləşdirən, real gerçəkliklə qlobal baxışları uzlaşdıran görkəmli siyasi liderdir. Buna görədir ki, İlham Əliyevin siyasi baxışları dərin nəzəri səviyyəsi, aydın məntiqi, fəlsəfi çəkisi ilə səciyyələnir. Möhtərəm Prezidentimizin müxtəlif məqamlardakı nitqləri zamanı müdrikliklə ifadə etdiyi yetkin siyasi tezislər dərinmənalı aforizmlər kimi səslənir. Böyük siyasətdə aforizm səviyyəsində düşünmək və özünü ifadə etmək yalnız və yalnız ən təcrübəli, uzun yol keçmiş, çox səviyyəli, böyük məktəblər yaratmış siyasətçilərə nəsib ola bilir".

Prezident İlham Əliyevin siyasi fəaliyyətinin ana xətlərini Azərbaycançılıq, millətlərarası münaqişələrin həlli, neft siyasəti, enerji təhlükəsizliyi, bəşəriyyətin taleyində çoxaspektli dialoqun rolu, tolerantlıq fəlsəfəsi, dövlətçilikdə xalq faktorunun üstün mövqeyi və sair kimi aktual, xüsusi çəkiyə malik məsələlər təşkil etdiyini bildirən alim "bu məsələlərin hər birinin şərhində və təqdimində İlham Əliyev ustad müəllim kimi yüksək professionallıq nümayiş etdirir. Milli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulması İlham Əliyev siyasətinin təməl prinsipidir. Prezident İlham Əliyevin siyasətində ən müxtəlif mövqelərdən, fərqli bucaqlardan ifadə olunan siyasi yanaşmaların hamısı Azərbaycançılıq fəlsəfəsində, Azərbaycanın inkişafı naminə aparılan qlobal siyasətdə tamamlanır. Azərbaycançılıq bu böyük və müdrik siyasətin cövhərini təşkil edir", - deyir.

"Müstəqil Azərbaycanın yeni siyasətini müəyyən edən, siyasi müstəvidə yeni istiqamətlər açan, yol göstərən" görkəmli dövlət xadimi kimi yüksək qiymətləndirilən İlham Əliyevin siyasətçi məharətini "dövlətin normal inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatı" bilir: "Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və mahir siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır", - deyir.

Burada "ciddi və mühüm bir nüans"ı da görən İsa Həbibbəyli mahir siyasətçinin dövlət başçısı kimi uğurlu fəaliyyətinin təkcə ölkənin və xalqın deyil, elə siyasətin də xeyrinə olduğunu söyləyir: "Çünki kamil, yetkin, lokal mənada da, qlobal səviyyədə də faydalı, gərəkli olan böyük siyasət özünü ifadə, yaxud özünütəsdiq baxımından real platsdarm, münasib meydan tapa bilməyəndə bəzən mücərrəd, utopik, yaxud havadan asılı olan nəzəri-ideoloji təlim olaraq qalır. Ancaq böyük siyasətçi üçün siyasi fəaliyyət dövlətçilik işinin daşıyıcısına çevriləndə daim yeniləşir, təkmilləşir, aşkarlanır, zənginləşir və inkişaf edir".

İlham Əliyevin siyasətinin də Azərbaycanda, həm də beynəlxalq müstəvidə konkret məsələlərin, aktual problemlərin həllinə istiqamətləndirilmiş siyasi fəaliyyət kimi mütəmadi olaraq yeniləşdiyini, inkişaf etdiyini görən alim onun siyasi mövqeyini (onun siyasi mövqeyi ölkəni irəli aparmaq, cəmiyyəti inkişaf etdirməkdir) alqışlayır.

*(Davamı var)*